BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2007

# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU: İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA KONVENSİYASININ 6-CI MADDƏSİNDƏ YER ALAN KONSEPSİYALAR HAQQINDA

T.T.VƏLİYEV
*Bakı Dövlət Universiteti*

1949-cu ildə təşkil edilən Avropa Şurası tarixi Avropa təşkilatlarından biridir. Bu təşkilatın əsas vəzfəsi demokratiyanın möhkəmləndirilməsi, insan hüquqlarının müdafiəsi və hüququn aliliyinin təsdiqindən ibarətdir. Qeyd etmək lazımdır ki, 1949-cu ildə Londonda qəbul edilmiş Avropa Şurasının Nizamnaməsində sadalanan məqsəd və prinsiplərə əməl edən dövlətlər Avropa Şurasının üzvü ola bilər. 1950-ci ildə qəbul edilmiş İnsan Hüquqları və Əsas Azadlıqları Haqqında Konvensiya 1948-ci ildə qəbul olunmuş İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin özünəməxsus davamı və inkişafı hesab edilə bilər.

İnsan hüquqlarının müdafiəsi sferasında xüsusi regional akt olan Avropa Konvensiyasında da ədalətli məhkəmə araşdırması hüququ öz əksini tapıbdır. Belə ki, Konvensiyanın 6-cı maddəsində tədqiq olunan hüquq burada daha da möhkəmləndirilibdir. Həmçinin Konvensiyanın 5-ci maddəsinin 3 və 4-cü bəndlərində də həbsdə olan və ya ittiham olunan şəxslərin ədalətli məhkəmə araşdırması hüququnun təminatı məsələləri öz əksini tapmışdır. Bu hüququn ayrı-ayrı elementləri İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın 7 saylı Protokolunun 2, 3 və 4-cü maddələrində də əks olunur.[1]

Bu maddələrin təhlilinə keçməzdən əvvəl Avropa İnsan Hüquqları Məhkəməsinin hüquqi təbiəti və vəzifəsi barədəki məsələləri nəzərdən keçirək. 1998-ci il Konvensiyasının 11 saylı protokolunun qüvvəyə minməsi ilə Avropa İnsan Hüquqları Komissiyasının fəaliyyətinə xitam verildi və vahid Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyətə başladı. Bu Protokolun qüvvəyə minməsinə qədər fərdi şikayətlərə və Konvensiyanın iştirakçısı olan dövlətlərin verdiyi şikayətlərə ilkin olaraq Avropa İnsan Hüquqları Komissiyasında baxılırdı. Komissiya, şikayətlərin qəbul olunması haqqında məsələləri araşdırır və bu məsələ müsbət həll olunarsa, onda yekun qərar çıxarılması üçün iş Avropa İnsan Hüquqları Məhkəməsinə verilirdi.[2]

11 saylı protokolun əsas əhəmiyyəti də ondan ibarətdir ki, yeni vahid məhkəmə iki mövcud nəzarət orqanının – Avropa İnsan Hüquqları Komissiyasının və Avropa İnsan Hüquqları Məhkəməsi Avropa İnsan Hüquqları Komissiyasının funksiyalarını da öz üzərinə götürürdü. Yeni məhkəmə yurisdiksiyası məcburidir və dövlətlərarası işlər, ayrı-ayrı şəxslərin şikayətləri də daxil olmaqla, Konvensiyanın Şərhinə və tətbi-

qinə aid olan bütün məsələlər aid edilirdi.

Qeyd etmək vacibdir ki, Avropa İnsan Hüquqları Konvensiyasının qərarları Avropa Şurasının bütün üzv dövlətlərinin hüquqtətbiqetmə praktikası üçün mühüm əhəmiyyətə malikdir, İnsan Hüquqları və Azadlıqlarının Müdafiəsi Konvensiyasının milli hüquq tətbiqetmə praktikasına uyğun olaraq milli qanunvericiliyi yaradarkən Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri ilə müqayisə etmək vacibdir.

M.L.Entinin qeyd etdiyi kimi, «Avropa Konvensiyası xüsusi çətin vəziyyətdə qalmış insanlara, fərdlər üçün ümumiyyətlə, qəbul olunmuş[3] müstəqil hüquq blokunu ədalətli məhkəmə araşdırmasında birləşdirir:

1. Bazis prosessual tələblərə cavab verən məhkəmə araşdırması;
2. Təqsirsizlik prezumpsiyası;
3. Cinayət əməlində günahlandırılan hər bir kəsin hüququ;[3]

Beləliklə, 6-cı maddənin vəzifəsi və məqsədi müdafiə hüquqlarını qorumaqdır. Strasburq presedent hüququ təsdiq edir ki, Konvensiyanın 6-cı maddəsinin məqsədləri baxımından cinayət ittihamı dövlət orqanlarının bu və ya başqa şəxsə qarşı şübhələrə əsaslanan hərəkətləri nəticəsində həmin şəxsin vəziyyətinə əhəmiyyətli təsir göstərdiyi andan mövcud hesab edilməlidir.

6-cı maddənin 1-ci bəndinə əsasən, hüquqların və ya ittihamların «müəyyən edilməsi» anlayışına iki əsas element daxildir. Əvvəla, onlar bu kateqoriyaya aid məsələlər üzrə məhkəmə nəzarətinin müəyyən formasının olmasını, digər tərəfdən isə, həmin məsələyə nəzarət edən orqanın icra üçün məcburi olan yekun qərarı çıxarmaq üzrə hüquqi səlahiyyətinin olmasını nəzərdə tutur. Çox vaxt cinayət mühakimə icraatı konteksti ilə müqayisədə (adətən burada mühakimə etmə, hökm çıxarma prosedurları və şikayət vermə proseslərinin bitməsi prosedurası daxili hüquqla dəqiq müəyyən edilir) mülki mühakimə icraatı kontekstində (bu icraat çərçivəsində bir sıra inzibati orqanlar və ya məhkəmə orqanları müəyyən rol oynaya bilər) bu elementləri müəyyənləşdirmək daha çətin olur. Konvensiyanın iştirakçısı olan hər bir dövlət öz yurisdiksiyası çərçivəsində hər bir kəsin, məhkəmə nəzarəti formasının atributlarına malik olan icraatın köməyi ilə, ona aid mülki və cinayət məsələlərinə məhkəmədə baxılması hüququnu təmin etməlidir. Bir sıra işlərdə bu tələbə cavab verməyən icraat olaraq inzibati icraatın aparılmasına etiraz edilirdi. Komissiya və Məhkəmə bu nəticəyə gəldilər ki, ya ilkin qərar qəbul edən orqanlar 6-cı maddənin 1-ci bəndinin prosedura tələblərinə əməl etməlidirlər, ya da onların qərarları həmin qərarları təmin etməli məhkəmə orqanının sonrakı nəzarətinə məruz qalmalıdır.

Məhkəmə Albert Le Komptun işinə baxarkən bu mövqeyin son hüdudlarını dəqiqləşdirdi:

Konvensiya aşağıdakı iki sistemdən ən azı birinin olmasını nəzərdə tutur: ya məhkəmə orqanları özləri 6-cı maddənin birinci bəndinin tələblərinə əməl edirlər, ya da onlara tam əməl etmirlər, lakin sonradan, tam səlahiyyətlərə malik olan və 6-cı maddənin birinci bəndi ilə nəzərdə tutulan qarantiyalara əməl edilməsini gerçəkdən təmin edən məhkəmə orqanı tərəfindən nəzarətə məruz qalırlar.[4]

Lakin Komissiya və Məhkəmə razılaşdılar ki, məhkəmənin mülahizə sərbəstliyini lazımi qaydada həyata keçirən inzibati orqanlar qiymətləndirmə prosesində 6-cı maddənin mühüm tələblərinə cavab verən dərəcədə azadlıqdan istifadə edə bilərlər. Konvensiyanın tətbiqi ilə bağlı

məhkəmə praktikası ona dəlalət edir ki, adətən Komissiya və Məhkəmə bir cox hallarda konkret işin mahiyyəti üzrə daxili qərarlara yenidən baxmırlar. Başqa sözlə, Strasburq orqanları bu və ya başqa fərdin inzibati qərardan və ya məhkəmə qərarından narazılığı ilə yox, 6-cı maddənin təminat verdiyi hüquqlardan imtinaya məruz qalma məsələləri ilə məşğul olurlar.[5]

Məhkəmələr və ya məhkəmə funksiyalarını həyata keçirən başqa orqanlar bu və ya başqa məsələ üzrə qərardad çıxarmaq üçün hüquqi səlahiyyətlərə malik olmalıdırlar.

Avropa İnsan Hüquqları Məhkəməsi bu işlərdə 6-cı maddənin 1-ci bəndinin pozulduğunu aşkar etdi. Məhkəmə həm də qərar qəbul etdi ki, konstitusiya məhkəməsinin bu və ya başqa işin mahiyyəti üzrə qəbul etdikləri qərarlara 6-cı maddənin mahiyyəti baxımından «müəyyən etmə» kimi baxıla bilər, lakin daxili məhkəmələrin qəbul etdikləri məhkəmə qərarlarının konstitusiya hüququna uyğunluğu barədə məhkəmə qərarına bu cür baxmaq olmaz.

«Mülki hüquq və vəzifələrin» təsir dairəsi ilə bağlı Strasburq məhkəmə praktikası müxtəlif məsələləri və problemləri əhatə edir. Avropa İnsan Hüquqları Məhkəməsi bu anlayışın ümumi tərifini işləyib hazırlamayıb, buna görə də o, müxtəlif cür şərh edilə bilər. Nəzəriyyəyə görə, «mülki hüquq və vəzifələr» xüsusi hüquq məsələlərinə (məsələn, fərdələr arasında) şamil edilən anlayışdır. Praktikada Avropa ölkələrinin çoxunun hüquq sistemi xüsusi və ümumi hüquq arasında dəqiq fərq qoymur. 6-cı maddənin əhatə etdiyi presedent hüququnun yeganə dəqiq meyarı, həp ikisi özəl şəxs olan, yaxud biri özəl şəxs, başqası isə dövlət olan tərəflər arasında mübahisənin olmasıdır.[6]

Komissiya və Məhkəmə hökumətlərə 6-cı maddədə nəzərdə tutulan tələblərə əməl etmək zərurətindən qaçmaq məqsədi ilə müəyyən məsələləri icra hakimiyyətinin səlahiyyətləri dairəsinə keçməyə icazə vermirlər. Hətta bu və ya digər məsələnin həllində daxili qanunvericilik inzibati orqanlara geniş hərəkət sərbəstliyi verildiyi hallarda da, Məhkəmə və Komissiya bu və ya başqa məsələni ümumi hüquq sahəsinə aid etmənin lehinə olan dəlil kimi qəbul etmirlər.

6-cı maddənin 1-ci bəndində nəzərdə tutulan «mülki hüquq və vəzifələr» anlayışının əhatə dairəsi kifayət qədər geniş olsa da, hər halda bir sıra məsələlər onun müdafiəsi altına düşmür. Mühacirətdə və sığınacaq verməklə bağlı prosedurlar bu cür məsələlərdəndir. Adətən bu məsələlərə əsas etibarilə ümumi hüquqa aid olan məsələlər kimi baxılır, o şərtlə ki, ərizəçi məsələnin Konvensiyada nəzərdə tutulan başqa hüquqdan getdiyini sübuta yetirməmiş olsun.[7]

Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə şərh verən E.Qrotaryn göstərir ki, 6-cı maddənin tətbiqi üçün aşağıdakı 3 şərtin birləşdirilməsi tələb olunur:

1. İnsanların bəzi hüquq və vəzifələrinin daxili qanunvricilikdə qəbul edilməsini real və ciddi şəkildə sübut etmək;

2. Mübahisə bitən kimi bu hüquq və vəzifələrin qəti müəyyənləşdirilməsi;

3. Sübut olunan hüquq və vəzifələrin mülki xarakter daşıması;[8]

«Cinayət ittihamı» anlayışı, habelə Konvensiyanın bir çox başqa müddəaları, xüsusən Konvensiyanın iştirakçısı olan dövlətlərdə «inzibati-cinayət» hüququnun mövcudluğu işığında nəzarət orqanları tərəfin-

dən müstəqil şərh edilməlidir. Bu cür sistemlərin qüvvədə olduğu dövlətlər müəyyən cinayət əməllərinə münasibətdə yurisdiкsiyanı, hüquq pozucuları üçün cəza təyin etməк səlahiyyətləri də daxil olmaqla, xüsusi olaraq yaradılmış inzibati orqanlara verirlər.

Komissiya və məhкəmə 6-cı maddənin üç bəndində rast gəlinən «cinayət ittihamı» (accusation en matiere penale) və «cinayət əməli törətməкdə təqsirləndirilən şəxs» (accuse dune infraction) anlayışlarını bütün maddə çərçivəsində eyni məna daşıyan anlayışlar кimi şərh edirlər. Məhкəmə hesab edir кi, 6-cı maddənin 1-ci bəndi həmin maddədəкi «cinayət ittihamı»nın formal şərhindən daha çox maddi hüquqi şərhini nəzərdə tutur. Konvensiyaya əsasən «ittihamın» xaraкteri 6-cı maddənin 3-cü bəndinin «b» yarımbəndinə əsasən müdafiəni hazırlamaq üçün кifayət qədər vaxta və imкana maliк olmaq hüququ ilə və 6-cı maddənin 3-cü bəndinin «c» yarımbəndinə əsasən müdafiəçinin yardımından istifadə etməк hüququ ilə bağlıdır.[9]

Konvensiyaya əsasən dövlət müəyyən şərtlər daxilində istənilən əməli cinayət adlandırmağa haqlıdır. Bu və ya başqa hüquq pozuntusunu müəyyən edən daxili qanunvericiliyin müddəaları onlara Strasburq orqanlarında baxılması üçün yalnız çıxış nöqtəsi rolunu oynayır. Məsələn, Öztürкün işində məhкəmə çinayət ittihamı anlayışını «requlyativ cinayətlər» adlandırılan əməllərə qismən şamil etdi кi, dövlət 6-cı maddədə nəzərdə tutulan prosedura təminatlarının qüvvəsini məhdudlaşdırmanı əsaslandırmaq məqsədilə cinayətlərin təfsirini dəyişə bilməsin. Məhкəmə tam aydınlığı ilə izah etdi кi, dövlətlər 6-cı maddənin tələblərinə əməl etməməк məqsədilə cinayət işini inzibati yöndə təqdim etməməlidir. Öztürкün işilə bağlı məhкəmə aşağıdaкıları bildirdi:

«Əgər razılığa gələn dövlətlər əməli öz mülahizələrinə görə requlyativ əməl кimi yox, cinayət əməli кimi töfsiv etməкlə 6-cı və 7-ci maddələrin başlıca müddəalarının qüvvəsini ləğv edə bilsəydilər, o zaman bu müddəaların tətbiqi onların suveren iradəsindən asılı olardı. Bu cür geniş fəaliyyət sərbəstliyi Konvensiyanın vəzifəsi və məqsədilə bir araya sığmayan nəticələrə gətirib çıxarardı».[10]

6-cı maddənin pozulmasının ən geniş yayılmış əsaslarından biri məhкəmə araşdırması müddətinin «ağlabatan müddətin» hüdudlarından кənara çıxmasıdır. Məhкəmə araşdırmasının ağlabatan sürətini təmin etməк tələbi cinayət işləri üçün кifayət qədər vacibdir. Xüsusilə də bu, təqsirləndirilən şəxsin həbsdə olduğu hallarda daha böyüк önəm кəsb edir. Bu cür işlərə münasibətlərə 6-cı maddənin 1-ci bəndi və 5-ci maddənin 3-cü bəndi ilə təmin olunan «ağlabatan müddət ərzində məhкəmə araşdırması və ya məhкəməyə qədər azad edilmə «hüququna aid tələbi tamamlayır.[11]

«Ağlabatan müddət» anlayışının məzmunu işin xaraкteri ilə müəyyən olunur. Bu qaydanın təməl prinsipini belə bir deyim tamamlayır: «Ədalət mühaкiməsi vaxtında həyata кeçirilməlidir!».

6-cı maddənin 1-ci bəndində nəzərdə tutulan «ağlabatan müddət» anlayışı subyeкtiv anlayışdır və mülкi işlərə və cinayət işlərinə tətbiq ediləгкən müxtəlif yanaşmalar ola bilər. Cinayət işləri кonteкstində məhкəmə müəyyən edir кi, bu müddət «səlahiyyətli orqanın fərdin cinayət əməlində təqsirləndirilməsi barədə rəsmi bildirişi ona təqdim etdiyi» andan, yaxud «şübhə edilən şəxsin vəziyyətinə xeyli dərəcədə təsiri olduğu» andan başlayır.

İlkin şərtlərin bərabərliyi prinsipindən danışarkən qeyd etməliyik ki, bu prinsip 6-cı maddəni özündə dəqiq əks etdirməyən, lakin onun təsirini başa düşmək baxımından çox vacib olan ən mühüm prinsipdir; həmin prinsipə görə, məhkəmə araşdırmasının bütün tərəfləri öz işlərini təmsil etməklə bərabər, imkanlara malik olmalıdırlar və tərəflərin heç biri əks tərəflə müqayisədə hər hansı mühüm imtiyazdan istifadə etməməlidir.[12]

«Dombo Beheer BV» işində məhkəmə 6-cı maddənin pozulduğunu müəyyən etdi, bu işdə, yəni təkcə iki əsas tərəfin iştirak etdiyi görüşdə guya əldə edilmiş olan şifahi razılaşma barədə mübahisədə tərəflərdən yalnız birinə məhkəmə araşdırmasının gedişində ifadə vermək imkanı verilmişdir.[13]

Azərbaycan Respublikasının İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanı ratifikasiya etməsi onun yurisdiksiyası altında olan bütün şəxslərin, əgər onlar hüquqlarını pozulmuş hesab edərlərsə, Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmələrinə imkan verir.

## QEYDLƏR


1. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya Bakı, Qanun nəş., 2000.
2. Азаров А., Ройтер В., Хюфнер К. Защита прав человека. Международные и российские механизмы. М., Московская школа прав человека, 2000. – səh. 276-282.
3. Энтин М.Л. Международные гарантии прав человека (практика Совета Европы). М., - 1992. səh. – 169.
4. Avropa İnsan Hüquqları Məhkəməsi. 6-cı maddə ilə bağlı seçilmiş qərarlar. Hüquq Maarifçiliyi Cəmiyyəti, Bakı, 2005.
5. Avropa İnsan Hüquqları Məhkəməsi: Konvensiyanın 5 və 6-cı maddələri üzrə məhkəmə təcrübəsi. Hüquq Maarifciliyi Cəmiyyəti, Bakı, 2004.
6. Энтин М.Л. Международные гарантии прав человека (практика Совета Европы). М., - 1992. səh. 150-160.
7. Лукьянцев Г.Е. Европейские стандарты в области прав человека: теория и практика функционирования ЕКПЧ. М.,2000, səh. 47.
8. Гротрайн Э. Статья 6 Европейской конвенции о защите прав человека и основных свобод. Право на справедливое судебное разбирательство. // Европейская конвенция о защите прав человека и основных свобод. Комментарий к статям 5 и 6. – М. – 1997, səh. 95.
9. Гомьен Д., Харрисон Д., Звaак Л. Европейская Конвенция о правах человека и Европейская социальная хартия: право и практика. М., изд-во Московского независимого института международного права, 1998.
10. Öztürk v. Germany, February 21, 1984, Series A, № 73.
11. Даффи П. Европейская конвенция о правах человека и эффективность судебной защиты. В кн. «Судебный контроль и права человека». М., 1996 səh. 85.
12. Stavros S. The Guarantees for Accused Persons Under Article 6 of the Evropean Convention on Human Rights. 1993.
13. Dombo Deheer BV v. Netherlands, October 27, 1993, Series A, □ 274.

## ПРАВО НА СПРАВЕДЛИВОЕ СУДЕБНОЕ РАЗБИРАТЕЛЬСТВО: О КОНЦЕПЦИЯХ, КОТОРЫЕ ПОЛУЧИЛИ МЕСТО В 6-Й СТАТЬЕ ЕВРОПЕЙСКОЙ КОНВЕНЦИИ ПО ПРАВАМ ЧЕЛОВЕКА

**Т.Т.ВЕЛИЕВ**

### РЕЗЮМЕ

Право на справедливое судебное разбирательство занимает важное место среди других прав человека, так как основной принцип защиты прав человека заключается в том, что любое нарушение право может быть восстановлено с помощью определенной процедуры. Статья 6 ЕКПЧ применяется к разбирательству по двум категориям дел: связанным «с определением гражданских прав и обязанностей» или «уголовным обвинением». П.1. ст. 6 ЕКПЧ применяется в отношении как гражданского, так и уголовного судопроизводства, в то время как второй и третий пункты ст. 6 применяются только к уголовным делам.

## ENTİTLEMENT FAİR COURT EXAMİNATİON: ON CONCEPTİONS THAT İNDİCATED AT $6^{TH}$ ARTİCLE OF EUROPEAN CONVENTİON ON HUMAN RİGHTS

**T.T.VALİYEV**

### SUMMARY

Entitlement fair court examination hold a important place between other human rights, as the main principle of protection of human rights consists of that any violation of human rights can be reinstated by use of determinate procedure. Article 6 of European Convention On human Rights applies to examination of case with the double categories: incident “with determination of human rights and obligations” or “criminal accusation”. $1^{st}$ point of article 6 of European Convention On Human Rights applies regarding so civil as criminal legal procedure, at that time as second and third points of $6^{th}$ article only on criminal cases.